# İdman xəbərləri

## Boksçularımız 5 medal qazandı




Boks üzrə "Böyük İpək Yolu" beynəlxalq turnirinə yekun vurulub. Bakı Boks Mərkəzində təşkil olunan yarışda Azərbaycan boksçuları ilə yanaşı, Rusiya, Qazaxıstan, Özbəkistan, Mərakeş, İraq, Türkiyə, Türkmənistan və Gürcüstan millilərinin 117 idmançısı gücünü yoxlayıb. Azərbaycan yığmasının heyətində "Qəbələ" İdman Klubunun 6 boksçusu da mübarizə aparıb.

Təmsilçilərimiz turnirdə biri qızıl, ikisi gümüş, ikisi bürünc olmaqla ümumilikdə 5 medal qazanıblar. 75 kq çəki dərəcəsində mübarizə aparan Kamran Şahsuvarlı bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Qızıl medala layiq görülən idmançımız həm də "Böyük İpək Yolu" beynəlxalq turnirinin ən texnikalı boksçusu adına yiyələnərək, müvafiq mükafatla təltif edilib. Finala qədər bütün rəqiblərinə qalib gəlib yalnız həlledici görüşdə uduzan Alfonso Dominqes (81 kq) və Rahil Məmmədli (91 kq) gümüş medala sahib olublar. Mübarizəni yarımfinalda dayandıran Cavid Cələbiyevlə (60 kq) Fərid Ağamoğlanov (64 kq) turnirin bürünc mükafatçısı olublar.

## U-12 «Trabzonspor»a qalib gəldi



Türkiyədə keçirilən ənənəvi "U12 İzmir Cup" beynəlxalq turnirinə yekun vurulub. Yarışda güvəsini sınayan "Qəbələ"nin 12 yaşadək futbolçulardan ibarət komandası sonuncu gün iki qarşılaşmaya çıxıb. Qrup oyunlarından sonra final mərhələsinə vəsiqə qazana bilməyən Elnur İmanquliyevin baş məşqçisi olduğu komanda təsəlliverici matçlarda gücünü yoxlayıb. "Qəbələ" Türkiyənin "Başakşəhər" klubu ilə qolsuz heç-heçə edib. "Trabzonspor"la görüşdə isə komandalar hərəyə bir qol vurublar. "Qırmızı-qaralar"ın heyətində Ömər Kərimov fərqlənib. Bu oyunun penaltilər seriyasında komandamız 5:4 hesablı qələbə qazanıb.

# Faydalı bitkilər

## Şahtərə

Bu birillik bitki ölkəmizdə çox geniş yayılmışdır.

Onun yarpaqları başqa hissələrindən daha təsirlidir. Ödqovucu və sidikqovucu təsirə malik olan şahtərə bitkisi eyni zamanda mədəni möhkəmləndirir, qanı təmizləyir, iştahanı artırır.

Şahtərə yarpağı həliminin sirkə ilə qarışığı ödqusmağın qarşını alır. Şahtərənin təzə şirəsi tamarind meyvələri ilə mədəni və bağırsağı təmizləyir. Xaricdən istifadə etdikdə isə dəmrovu aradan qaldırır.

Şahtərənin ekstraktını antiseptik vasitə kimi gözə damcılayırlar. Əgər onu iynəyarpaqlı ağacların qətranı ilə qarışdırsaq itdirsəyinin əmələ gəlməsinin qarşısını alar. Şahtərənin həlimi ilə ağızı yaxalamaq dil iltihabının aradan qaldırılması və damaqların möhkəmlənməsi üçün xeyirlidir.

Alimlər müəyyən etmişlər ki, şahtərə spazmalitik təsirə malikdir və həzmedici traktın sığallı



əzələsini, sidik və öd yollarını tonuslaşdırır. Bundan əlavə o, qan təzyiqini aşağı salır, ürəyə müsbət inotrop və xronotrop təsir göstərir, nəfəsalmanı stimullaşdırır, sığallı əzələnin spazmasının qarşısını alır və serotoninin effektini zəiflədir. Dərman şahtərəsi və ondan alınan bəzi preparatları öd kisəsi sancılarında, xoliletiazda, miqrendə, xroniki qəbizlik və babasildə tətbiq edirlər.

Bunun üçün 2-3 çay qaşığı şahtərə otunun çövhərini 1 stəkan suya tökərək qarışığı 3-4 saat saxlayır, sonra onu süzürlər. Qarışığı 1 xörək qaşığı hesabı ilə gün ərzində 3-5 dəfə qəbul etmək lazımdır.

Eləcə də şahtərənin şirəsini eyni miqdarda şəkərlə qarışdıraraq gündə 2-5 xörək qaşığı qədərində qəbul etmək məsləhət görülür.

## İşıq selinin udulmasının ilk fotoşəkili göstəriləcək

Bu həftə astronomiya elmi tarixində qara dəliyin işıq selini udmasının ilk fotoşəkili göstəriləcək. Bununla bağlı ABŞ-ın Milli Elm Fondunun Vaşinqtonda mətbuat konfransı keçiriləcək.

AZƏRTAC Reuters agentliyinə istinadla xəbər verir ki, mətbuat konfransında 2012-ci ildən bəri kosmosda müşahidələr aparan "Event Horizon" teleskopunun qeydə aldığı sensasiyalı fotoşəkil təqdim olunacaq və astronomların müvafiq məruzələri dinləniləcək. Analoji mətbuat konfranslarının Brüssel, Santyaqo, Şanxay, Tokio şəhərlərində də təşkil olunacağı nəzərdə tutulur.

Amerikan alimləri qeyd edirlər ki, kainatın ən maraqlı hadisəsi olan qara dəlik üfüqü kosmosda olan bütün cisimlərin - ulduzların, planetlərin, qaz, toz, elektromaqnit dalğalarının, o cümlədən işığın yaranma və yoxolma mənbəyidir. Hələlik astronomlar bununla bağlı məruzələrin son detallarını dəqiqləşdirirlər.

Harvard və Smitsonian Astrofizika Mərkəzində yerləşən "Event Horizon" teleskopunun direktoru Şeperd Doleman martda Texasda keçirilən tədbirdə bildirib ki, bu fotoşəkil teleskopun uzunmüddətli müşahidələri sayəsində əldə edilib və onun rəhbərlik etdiyi qurum dünyanın 200 astrofiziki ilə əməkdaşlıq edib.

Arizona Universitetinin astrofiziki Dimitrios Psaltis bildirib ki, çərşənbə günü keçiriləcək mətbuat konfransında bütün proseslər Albert Eynşteynin ümumi nisbilik nəzəriyyəsi əsasında izah ediləcək. Bu nəzəriyyə 1916-cı ildə irəli sürülüb və cazibə qüvvələrinin fəaliyyət göstərdiyi dördölçülü məkan-zamanın qeyri-Evklid həndəsəsinin nisbətlərinə tabe olmasını əsaslandırır.

## İlk dəfə

◊İlk dəfə futbol komandası bir qapıçıdan, bir müdafiəçidən, bir yarımmüdafiəçidən və 8 hücumçudan ibarət olmuşdur.

◊Futbol meydançasında hakimin fit səsi ilk dəfə 1881-ci ildə eşidilmişdir. Ondan qabaq isə hakim oyunu əlindəki zənglə idarə edirdi.

## İtmişdir

Şamlı Bələdiyyəsi tərəfindən **Abbasov Pərvin Mehman oğluna** torpaq alqı-satqısına dair verilmiş 27 dekabr 2006-cı il tarixli 15 nömrəli **qərar** və 7 fevral 2007-ci il tarixli **torpaqların alqı-satqısına dair akt** (qeydiyyat nömrəsi 125) itdiyi üçün etibarsız sayılır.

Çarxana Bələdiyyəsi tərəfindən **Fəzliyev Rəşad Hikmət oğluna** torpaq alqı-satqısına dair verilmiş 10 fevral 2006-cı il tarixli 02 nömrəli **qərar** və 17 fevral 2006-cı il tarixli **torpaqların alqı-satqısına dair akt** (qeydiyyat nömrəsi 135) itdiyi üçün etdibarsız sayılır.

Hacıalılı Bələdiyyəsi tərəfindən **Rəhimov Valeh Məmməd oğluna** torpaq alqı satqısına dair verilmiş 24 aprel 2006-cı il tarixli 6 nömrəli **qərar** və 6 sentyabr 2006-cı il tarixli **torpaqların alqı-satqısına dair akt** (qeydiyyat nömrəsi 176) itdiyi üçün etibarsız sayılır.

Bakı Kooperativ Texnikumu tərəfindən **Mustafayeva Nazlı Xalis qızına** 3 iyul 1984-cü ildə verilmiş iş JQ seriyalı 032556 nömrəli (qeydiyyat nömrəsi 4306) **orta ixtisas təhsili barədə diplom** itdiyi üçün etibarsız sayılır.

AR DƏDRX Qəbələ Rayon Ərazi İdarəsi tərəfindən **İlyasov Cavid Dünyamin oğluna** 16 may 2007-ci ildə verilmiş MH seriyalı 0002968 nömrəli (reyestr nömrəsi 406013001924, qeydiyyat nömrəsi 190701736) hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən **çıxarış** itdiyi üçün etibarsız sayılır.

Bum Bələdiyyəsi tərəfindən **Əfəndiyeva Günay İmaməddin qızına** verilmiş 25 noyabr 2006-cı il tarixli 11 nömrəli **qərar,** 29 noyabr 2006-cı il tarixli (qeydiyyat nömrəsi 263) **torpaqların alqı-satqısına dair akt, sahənin yerquruluşu planı** və 22 noyabr 2006-cı il tarixli **ödəniş orderi** itdiyi üçün etibarsız sayılır.

Bum Bələdiyyəsi tərəfindən **Əfəndiyev Sərvər Yaqub oğluna** verilmiş 29 sentyabr 2006-cı il tarixli iclasın **qərarı,** 06 oktyabr 2006-cı il tarixli (qeydiyyat nömrəsi 169) **torpaqların alqı-satqısına dair akt, sahənin yerquruluşu planı** və 25 sentyabr 2006-cı il tarixli **ödəniş orderi** itdiyi üçün etibarsız sayılır.

Şəki RQİ və TBŞ tərəfindən 24 oktyabr 2014-cü ildə Nic qəsəbə sakini **Həsənəliyev Aqil Qafar oğluna** məxsus VAZ 21061 markalı 36 BG 472 dövlət nömrə nişanlı avtomobilə verilmiş AC seriyalı 185709 nömrəli **qeydiyyat şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.

AR ƏMDK yanında DƏDRX-nin 9 saylı Qəbələ Ərazi İdarəsi tərəfindən Solquca kənd sakini **İsayev Alim Məhyəddin oğluna** verilmiş 27 sentyabr 2018-ci il tarixli A seriyalı 307891 nömrəli (reyestr nömrəsi 406013065553) və 27 sentyabr 2018-ci il tarixli A seriyalı 307892 nömrəli (reyest nömrəsi 406013065554) **torpaq sahələrinin planları və ölçüləri** sənədləri itdiyi üçün etibarsız sayılır.

## Bilirsinizmi?

- *"İspaniya" "dovşanlar torpağı" kimi tərcümə olunur.*
- *Çirkli qar təmiz qardan tez əriyir.*
- *Tarixdə ilk odekolon taun xəstəliyinə qarşı profilaktik vasitə kimi istifadə edilib.*
- *Məşhur nağıl yazarı Hans Xristian Anderson demək olar ki, bir sözü belə savadlı yaza bilmirmiş.*
- *Hər gün dünyada orta hesabla 33 yeni məhsul buraxılır, bunların 13-nü isə oyuncaqlar təşkil edir.*
- *İnsan çay içməyə daha tez aludə olur, nəinki narkotikə.*
- *İl ərzində insan qabırğası 5 milyon dəfə hərəkət edir.*
- *İlbizlər 3 il yata bilirlər*
- *Bütün həyatı ərzində insan təqribən 40 ton ərzaq məhsulu istehlak edir*
- *İlk saat (günəş saatı) qədim Misirdə ixtira edilib.*

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

## ALLAH RƏHMƏT ELƏSİN!

FHN-nin Şimal-qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları **Elturan Əfəndiyevə** atası, fəal ictimaiyyətçi

**ZAHİD MÜƏLLİMİN**

vəfatı ilə əlaqədar kədərləndirdiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər

Məsul katib
Qüdrət Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1780